Azərbaycan Respublikasının
Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Agentliyi

EDF
SBIIYF

# Şuşa xarici sərmayəçinin və potensial turistin gözü ilə




Dr. İnqilab Əhmədov

25 noyabr 2022-ci il

# Problemin qoyuluşu

28 illik işğal dövründə tamamilə dağıdılan Şuşa şəhəri unikal relyefə malik olduğundan və bərpası külli miqdarda vəsait tələb etdiyindən, onun yalnız dövlət vəsaiti hesabına bərpası effektiv (rasional) deyil.

# Məqsəd

Şuşa şəhəri 28 illik işğaldan azad edildikdən sonra, onu yalnız bərpa etmək yox, dünya üçün tanınan, cəlbedici və unikal etmək lazımdır.

# Dünya təcrübələri

- ✓Hazırda UNESCO-nun Dünya İrsi Konvensiyasının (World Heritage Convention) siyahısında dünyanın demək olar ki, bütün ölkələrindən 1154 məkanının adı var;

- ✓Siyahıda Azərbaycandan İçərişəhər, Qobustan Qaya sənəti mədəni landşaftı və Şəki Xan sarayı da var.

# Vilyamsburq:
# Açıq səma altında canlandırılan tarix



- ABŞ-ın Virginiya ştatında yerləşən Vilyamsburq layihəsi 1926-cı ildə Jon Rokfellerin maliyə dəstəyi ilə gerçəkləşib;

- Layihənin məqsədi həmin məkanda 18-ci əsr kolonializmini canlandırıb, müasir nəsil üçün onu bir növ teatrlaşdırılmış canlı şəhərə çevirməkdir;

# Vilyamsburq:
# Açıq səma altında canlandırılan tarix

- ✓ Kolonial Vilyamsburq mülkü 1927-ci ildə satın alınıb və 1936-cı ildə Rokfellerin evi olub;
- ✓ Açıq səma altında olan şəhəri tam gəzib-dolanmaq üçün 2-3 saat vaxt lazımdır;
- ✓ Fondun maliyə dayanıqlığı dövlət-özəl tərəfdaşlığı - PPP (public private partnership) modelinə əsaslanır.






# Şuşanın profili

- Şuşa şəhərinin ərazisi - 5.5 kv.km;
- Şuşa rayonunun 1 yanvar 2016-cı il tarixinə əhalisi 32,8 min. nəfər;
- Etnik tərkibinə görə Şuşada əsasən azərbaycanlılar yaşayıb. Əhalinin 95,8 %-i azərbaycanlılar, yalnız 4 %-i ermənilər olub;



# Şuşanın profili

- Şəhərin təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulub;
- Şuşada 17 məhəllə olub;
- Şuşa şəhəri 31 kənd ilə birlikdə Şuşa inzibati rayonun tərkib hissəsidir;
- Şuşanın keçmişdə mərkəzi kimi Bazarbaşı (Rastabazar) göstərilirdi.



# Şuşa şəhərinin bərpası və statusu ilə bağlı mövcud qanunvericilik

- ✓**"Şuşa şəhəri haqqında"** Qanun **–** *31 may 2021-ci il;*
- ✓**Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında** Qanun – *2000-ci il;*
- ✓**"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə Tədbirlər Planı" –** *NK qərarı, 2 iyun 2022-ci il;*
- ✓ **"Şuşa şəhərinin ərazisində qadağan olunmuş sahibkarlıq fəaliyyəti növlərinin Siyahısı" –** *NK qərarı, 2 avqust 2022-ci il*

# Şuşanın və digər azad edilmiş ərazilərin bərpasında mövcud maliyyə imkanları

- ✓2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası- **2,2 mlrd. man.;**

- ✓2022-ci ildə dövlət büdcəsinə edilən dəyişikliklərdən sonra bu məqsədlə ayrılan vəsait artırılaraq - **2,67 mlrd. man.**;

- ✓**2023-cü il dövlət büdcəsində - 3,0 mlrd. man.,** və ya cari ilə nisbətdə 330,0 milyon manat (12,4 faiz) çox vəsait nəzərdə tutulmuşdur.



# Şuşanın yaxın perspektivdə inkişaf istiqamətləri

- ✓Şuşa unikal tarixi və mədəni irs kimi;
- ✓Şuşa unikal ənənə və bacarıqların dirçəlişi kimi;
- ✓Şuşa və ətraf regionun yeni tərtibatda dirçəldilmiş saglamlıq mərkəzi kimi;
- ✓Şuşa və ətraf regionun ekoturizm mərkəzi kimi;
- ✓Şuşa Qarabağ yaşıl enerji modelinin tərkib hissəsi kimi.

# Şuşa unikal tarixi və mədəni irs kimi



# Şuşa unikal ənənə və bacarıqların dirçəlişi kimi





# Şuşa və ətraf regionun yeni tərtibatda dirçəldilmiş sağlamlıq mərkəzi kimi










# Şuşa və ətraf regionun ekoturizm mərkəzi kimi





# Şuşa Qarabağ yaşıl enerji modelinin tərkib hissəsi  kimi



# “Dövlət-özəl tərəfdaşlığı” Şuşanın bərpa və yenidənqurulmasında əsas model kimi

- ✓Milli Məclisdə 1-ci oxunuşdan keçmiş “Dövlət-özəl tərəfdaşlığı” (PPP) Qanunu;
- ✓PPP-nin üstünlükləri;
- ✓PPP-nin Şüşanın bərpa və inkişafında relevantlığı;
- ✓PPP, dövlət vəsaitinə qənaət etmək üçün münasib model kimi.

# Nəticə və tapıntılar

- ✓Şuşanın unikallığı onun dünya üçün əlçatan və cəlbedici edilməsində unikal marketinq yanaşması tələb edir;
- ✓Əsas hədəflərdən biri dövlət büdcəsindən ayrılan investisiya xərclərinin optimallaşdırılmasına nail olmaqdır;
- ✓Şuşanın perspektiv inkişafını yalnız turist ziyarətinə bağlamaq riskli ola, onun, davamlı inkişaf üçün kifayət etməyə bilər;
- ✓Şuşanın inkişaf planını diversifikasiyalı model əsasında təşkil etmək daha münasib görünür.

# Nəticə və tapıntılar

- ✓Şuşanın istehsal və xidmət potensialı geniş çeşidli yox, məhz unikallığı ilə seçilən mal və məhsulun, habelə xidmətlərin gerçəkləşməsindən keçir;
- ✓Şuşanın unikal səriştə və bacarıqlarını məhz **qiq iqtisadiyyatı** üzərində qurmaq daha məntiqi görünür;
- ✓İşçi qüvvə üçün müntəzəm təlimlərin təşkili uğurlu nəticə üçün mütləq şərtdir;
- ✓Çoxşaxəli fəaliyyət istiqamətləri, özü-özlüyündə müqayisəli üstünlüklərə malik seqmentlər olmaqla yanaşı, həm də bir-birini tamamlayan fəaliyyət növləridir;
- ✓Dövlət-özəl tərəfdaşlığı modeli Şuşanın həm bərpasında, həm də gələcək inkişafında davamlılığı təmin etmək üçün daha münasib görünür.

# Tövsiyələr

- ✓ Davamlı inkişaf modeli üçün Strategiyanın hazırlanması, bu istiqamətdə prioritetlərin müəyyənləşdirilməsi, habelə hökumətin konseptual yanaşmasınının, o cümlədən resursların cəlb edilməsinin orada əks etdirilməsi müvafiq görünür;
- ✓ Şuşanın həm bərpası, həm də gələcək inkişafının əhatəli və hərtərəfli tərtibi üçün bütün maraq tərəfləri ilə, o cümlədən icma qururmları, bizneslə müzakirələrin təşkili uğur şərtlərindən biridir;
- ✓ Şuşanın bərpası və yenidənqurması prosesində mümkün təsirlərin qiymətləndirilməsi, xüsusilə neqativ eksternaliti təsirlərinin müəyyənlişdilməsi və potensial itkilərin minimuma endirilməsi üçün önəmlidir;
- ✓ İlkin mərhələdə Şuşanın cəlbediciliyinin təmin edilmısi üçün dövlət və ictimai sektorda, habelə biznes səviyyəsində müntəzəm promo materiallarının hazırlanıb dünya ictimaiyyəti üçün əlçatan edilməsi gələcək uğurun təməlidir.